BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Sosial-siyasi elmlər seriyası 2010*

# BEŞİNCİ KİTAB. FRİDRİX NİTSŞE VƏ NİTSŞEÇİLİK

**S.M.ƏLİYEVA**
***Azərbaycan Universiteti***
***azzizon@mail.ru***

*Ya rəbbim, görəsən mənim hədər*
*getmək üçün nə qədər ömrüm qalmışdır?*
*V.Q.Belinski*

*Məqalədə Fridrix Nitsşenin həyat və yaradıcılığının əsas cəhətləri öz əksini tapmışdır. Məqalədə müəllif Fridrix Nitsşenin həyat və yaradıcılığının ən mühüm hadisələrini onun yaşadığı dövrün tarixi və siyasi hadisələri ilə əlaqələndirmişdir. Yeni kapitalizm cəmiyyətinin köhnə Prussiya qaydalarına sığa bilməyən ənənələri və bu iki fərqli istiqamətin ziddiyyətlərinin doğurduğu düşüncələrin ədəbi və fəlsəfi yaradıcılıqda əks olunmasını müəllif ifadə edir və göstərir ki, Zərdüştü məhz həmin mühit yetişdirmişdir. O, həmçinin əsərin müsbət və mənfi cəhətlərini izah edir, bu əsəri İsa peyğəmbərin dörd həvarisi tərəfindən qələmə alınmış İncildən köklü surətdə fərqini göstərir. Müəllif məqalədə həm də ədəbi və fəlsəfi dillə bağlı olan problemlərə də münasibətini bildirmişdir. O, Azərbaycan fəlsəfi dili ilə bağlı öz mülahizələrini irəli sürmüşdür.*

İnsan öz mühitinin məhsuludur, onun mövcudluğu yalnız zaman və məkanın çevrəsində mümkündür, deməк dahilər haqqında danışmaq üçün də, əvvəlcə onların mühitindən başlamaq, yaşadığı dövrü analiz etmək lazımdır. Digər tərəfdən, istənilən elmi tədqiqat üçün kontent - analiz tələb olunur və təkcə ona görə yox ki, insanı mühit yetişdirir və təkcə ona görə yox ki, sosium öz mühitindən heç vaxt tam təcrid oluna bilmir, yox, əsla yox, hər şeydən əvvəl ona görə ki, mühit dahiləri yetişdirdiyi kimi, bəzən də dahilər özləri öz mühitini yaradırlar...

Fridrix Nitsşe (1844 – 1900) ilə ilk tanışlıqdan başlayaraq həssas oxucu üçün diqqəti çəkən birinci məsələ, onun ideala pərəstişlə bağlı şəxsi həyatı və bu həyatdan dolayı əzablı bir ömür yoludur. Ömrünün hansı məqamındasa, sənətə pərəstiş duyğusu onun düşüncələrinə hakim kəsilir və Fridrix Nitsşe yerdə qalan həyatını, kimin üçün isə idealın qara-boz kölgəsində, kimin üçün isə ülvi bir düşüncənin işığında görür. Fridrix Nitsşenin həyatından və yaradıcılığından heç vaxt ona dərs deməyən, lakin bütün varlığı və qəlbi ilə onun mənəvi müəllimi olmuş böyük alman bəstəkarı, məşhur filosof Rixard Vaqnerə (1813-1883) pərəstiş duyğusu sezilir, daha doğrusu, ülvi bir sənət idealı onun ömründən qırmızı xətt kimi keçir və özündən sonra dərin bir iz buraxır, Fridrix Nitsşenin əsərlərindən hələ indi də böyük sənət qarşısında əriyən bir qəlbin çırpıntıları duyulmaqdadır...

Fridrix Nitsşeni yalnız oxumaqla onu tanımaq mümkün deyil, yalnız təkrarla, zikrlə onu dərk etmək olmaz, yaxud yalnız ona vurulmaqla da iş bitmir. Almaniya

mühitində nə vaxtsa partlayacaq yeni bir "esse homo" – yəni dinamit yaradan Fridrix Nitsşeni duymaq və tanımaq üçün ciddi və rasional bir düşüncə qədər, elə o dərəcədə də, həssas qəlb tələb olunur. İ.Qarin yazırdı: "Nitsşenin fəlsəfəsi – Nitsşenin daxili aləminin fəlsəfəsidir" (15,79). 1897-ci ildə Vladimir Solovyov (1853 - 1900) "Sözçülük və həqiqət" adlı məqaləsini yazdığı zaman Fridrix Nitsşeni "adi bir filoloq, onun yaratdığı "fövqəl – insan"ı isə "fövqəl – filoloq" kimi xarakterizə etmişdi (26, 187). Vladimir Solovyov, hətta istehza ilə Fridrix Nitsşenin öz əsəri üçün "Zərdüşt" adını seçməsini, onun tərcümə zamanı qadın adları ilə dəyişik düşə biləcəyi qorxusu ilə izah edirdi. Amma onun düşüncələrinin tam əksinə olaraq, Fridrix Nitsşe J.P.Sartrdan, Karl Yaspersdən ("Nitsşe və xristianlıq"), Stefan Sveyqdən ("Fridrix Nitsşe"), Şopenhauer, Şiller, Bayron və Helderlinə qədər, bütün böyük yaradıcıların diqqətini çəkdi. İ.İ.Qarin ("Nitsşe"), A.E.Smolyaninov ("Mənim Nitsşem") nitsşeçilik fəlsəfəsini müasir dövrün kontekstində izah etdilər, hətta bir sıra din xadimləri də bu mövzuya qayıtdılar. Müqəddəs İustin "Fəlsəfi uçurumlar" adlı əsərində nitsşeçiliyi belə ümumiləşdirmişdi: "İnsanın ağlı və düşüncəsindəki mövcud çatlar və təbəddülatlar əvvəlcə onun qəlbində yaranır" (25,15). Müqəddəs İohann isə "Simfoniya" adlı əsərində nitsşeçiliyi tamamilə orijinal bir şəkildə çözdü. Və bu gün də Nitsşenin tədqiqatları davam edir, hətta Rusiyada onun virtual seminarları keçirilir, deməк, Nitsşe yaradıcılığının resepsiyası XXI əsrdə yenidən dünyanın diqqət mərkəzindədir. Daimi, ünvansız axtarışlar, yalana patoloji nifrət və yaradıcılıq "evrika"sından yerə - göyə sığmamaq, - bunlar onun qeyri – adi cəhətləri idi. Fridrix Nitsşe ömrünün sonuna kimi özündən "daha yaxşı deyə bilənlərin" qarşısında sarsılırdı, bütün həyatı boyu sənətə pərəstiş duyğusu onu tərk etmirdi, o, heç vaxt sənət və həqiqət qarşısında əyilməyə utanmırdı. Gənc Henrix Şteynin "Materializmin idealı. Lirik fəlsəfə" adlı əsəri onun qəlbini fəth etmişdi, ruhuna qanad vermişdi. Fridrix Nitsşe bunu etiraf etməkdən çəkinmirdi. O, bəzən sözlərə, sənətə canlı bir insan kimi vurulurdu... Fridrix Nitsşenin yaradıcılığında "Zərdüşt belə demişdir" əsəri xüsusi bir yer tutur, çünki bu əsərlə o dünyaya öz ilk və son sözünü deyə bilmişdir. Zərdüştü o, bir peyğəmbər kimi təqdim edir və buna görə də Zərdüştün dedikləri, bəzən İsanın pritçalarını, bəzən də Məhəmmədə göndərilən vəhyləri xatırladır. Fridrix Nitsşenin Zərdüştü peyğəmbər kimi pritçalar söyləsə də, əslində o həyat bilicisidir, filosofdur. O, bir qədər Empedokldan, Heroklitdən, Spinozadan və nəhayət, Hötedən öyrənən, "İnsanın əldə edəcəyi ən yüksək şey, - onun öz şəxsi qənaətlərini və fikirlərini dərk etmək, yəqinləşdirmək, özünü tanımaqdır, bunlar onu ruhunun mahiyyətini anlamağa və başqalarının fikirlərini qavramağa yönəldir" (18, 307)qənaəti ilə yaşayan, həyatın əbədi mövcudluğunda ən sadə qanunların mürəkkəb vəhdətini görməyə can atan bir filosofdur. Böyük sənət əsəri həmişə böyük yanaşma tələb edir. Fridrix Nitsşenin sənətinin böyüklüyü, fəlsəfəsinin gücü isə onun əsərlərində başqalarına xas olmayan düşüncə azadlığı və yaratdığı qəhrəmanın iddiasızlığıdır. Zərdüşt dünyadan heç nə istəmir, günəş öz işıq və hərarətini əvəzsiz payladığı kimi, o da dünyaya təmənnasız boylanır. Hələ çox gənc yaşlarından Fridrix Nitsşenin həyat haqqındakı mülahizələri belə idi: "Hələ ki, mən yaşayıram, mən düşünürəm, mən hələ yaşamalıyam, çünki mən hələ düşünməliyəm... (Sum, erqo codito, codito, erqo sum) Mən bütün həyat hadisələrində vacib olanları, gözəllik əlamətlərini görməyi öyrənmək istəyirəm... Mən pisliklə mübarizə aparmayacağam, mən ittihamçı olmaq istəmirəm. Bir sözlə, mən həyatın bütün hallarında yalnız təsdiq etmək, yalnız inandırmaq istəyirəm" (16,202). O, bu fikirlərini qələmə aldığı zaman hələ çox gənc idi və həyatın yalnız görünən

tərəflərini tanıyırdı, həyat isə romanlara sığacaq qədər sadə və konkret deyildi... Fridrix Nitsşeyə - 24 yaşlı filologiya doktoruna çox sonralar bəlli oldu ki; "filologiyanın tədqiq etdiyi sahə tükənə bilər, əbədi olmaya bilər, yalnız xronotop yanaşma tükənmir" (4,9). Tezliklə o anladı ki, ədəbiyyat cari həyat kolliziyalarından bəhs edərkən, məişət hadisələri çərçivəsindən kənara çıxa bilmir, bütün düşüncələr ifadə olunmur, bütün sözlər lüğətə yerləşmir və ədəbiyyatda düşüncə ilişib qalırkən, fəlsəfə insana intəhasızlıq, hüdudsuzluq vəd edir. Fəlsəfə onu cəlb etdikcə, aydın oldu ki, adi insan həyatı və insanın gündəlik qayğıları getdikcə onun üçün öz mahiyyətini itirir. Ona qeyri-adi bir hadisə, partlayış, şan – şöhrət lazım idi. Hələ yaradıcılığının ilk dövrlərində Demokritin "Hər şey axır, hər şey dəyişir" düşüncəsi onun "əbədi qayıdış" kredosunun yaranmasına səbəb olmuşdu və bu onu bütün həyatı boyu o əbədiyyətin sirrini axtarmağa sövq edirdi...

Sent– Ekzüperinin yaratdığı Balaca Şahzadə isə deyirdi: "Bir dəfə mən ... günəşin qürubunu gördüm!... Bilirsənmi... nə zaman ki, insan üçün hər şeyə və hər yerə kədər çökür, bu zaman o günəşin qürubuna baxmalıdır. Günəş öz qürubunda əbədiyyətdən danışır" (13,384). C.X. Cübran isə əbədiyyəti belə təsəvvür edirdi: "...qızılgülün ləçəkləri ilə tikanları arasındakı həqiqət əbədiyyət yuxusu ilə yatır" (2,166). İnsanlar tarix boyu əbədiyyətin sirrini gah sonsuzluqda, gah uyğunluqda, gah çərçivədə, gah azadlıqda axtarmışlar. Məsələn, O. Şpenqler deyirdi ki, yunanların idealı sonsuzluq deyil, uyğunluqdur, yunanlar ona görə uyğunluq axtarırdılar ki, bir – birinə uyğun olanların əlaqəsindən gözəllik kultu yaratsınlar... Gözəllik isə daimi olmadığı üçün o özündə əbədiyyətin sirrini saxlaya bilməzdi. Əbədiyyətin sirri əbədi yolçuluqda olan sonsuzluqdur, bu, əslində "Səvvan yoxuşu"nun yolçuluğudur (6, 270), insanlar ölüb gedir, münasibətlər, düşüncələr yaşayır və üst-üstə toplanır. Bizə elə gəlir ki, əbədiyyətin sirri hərəkətin deyil, duyğuların, düşüncənin sonsuzluğundadır. Eyni mahiyyətdə hər dəfə fərqli keyfiyyət tapmaq, hər dəfə yeni bir məzmun əldə etmək və Səməd Vurğun demişkən, bunun "sənələrcə" davam etməsi... kumulyativlikdə fərqli bir cəm... (yaxud fərqli lövhələrdə tamamilə fərqli şəkildə toplanan cəm) və əslində insanı cəlb edən, daim dəyişən bu axının əbədi dayanıqlığıdır. Gedəndə qalanın yəqinliyi Qurani–Kərimdə "kulli jəvmin huva fa şənin" məntiqi ilə izah edilir. Yəni insan həyatının hər bir günü sanki böyük bir ssenarinin gündəlik yazılan bütöv və təkrarsız məzmununun qısa xülasəsidir... Biz öz fikirlərimizdə Fridrix Nitsşenin dünyada ən gözəl tədqiqatçılarından biri hesab edilən fransız alimi və filosofu Daniel Qaleviyə istinad etmək qərarına gəldik, çünki onun yazılarından təkcə yazıçı, tənqidçi, filosof yox, diqqətli və ağıllı bir tədqiqatçı, həm də həssas və incə qəlbli bir oxucu boylanır. Bundan başqa, Daniel Qalevi, həm də irsən Fridrix Nitsşenin yaradıcılığı və mənəvi dünyası ilə bağlı idi. Onun atası Lüdviq Qalevi vaxtilə böyük fransız bəstəkarı Corc Bizenin məşhur "Karmen" operasının librettosunu yazmışdı, o əsər ki, Fridrix Nitsşenin yaradıcılığında xüsusi yer tuturdu. Günlərin birində, təsadüfən, Corc Bizenin "Karmen" operasını dinləyən Fridrix Nitsşe, əsərdən çox mütəəssir olur və deyir: "Eşq olsun, eşq olsun! Bu opera adama Merimenin novellaları kimi təsir bağışlayır, ... o, fərasətlidir, o, güclüdür və bəzən dərin həyəcan yarada bilir... əsil fransız istedadıdır, hələ Vaqnerin təsiri altına düşməmişdir, həqiqi Berliozun davamçısıdır (16,201). Çox sonralar isə o, "Karmen" operası haqqında yeni bir qənaətə gəlir: "Bu əsər məni azad edir". Daniel Qalevi Fridrix Nitsşenin həyatının bütün incə məqamlarını aça-aça, əslində onun yaradıcılığının elmi, ədəbi, fəlsəfi mahiyyətini meydana qoyur. Bəlkə də A. Paysda ona görə

Albert Eynşteynin böyük kəşfləri belə sadə və ətraflı şəkildə öz əksini tapmışdır ki, müəllif: “Mən heç vaxt ondan azad adama rast gəlməmişəm” düşüncəsi ilə yaşamış, böyük alimin bütün şəxsi keyfiyyətlərini, psixoloji – mənəvi yaşantılarını duymuş, “evrika” momentlərini, düşüncənin işıqlanma anlarını oxucuya təqdim edə bilmişdir (24,9). Fridrix Nitsşenin qəlbində çox gənc yaşlarından poeziya, proza, təhdid və fəlsəfədən ibarət olan bir “İsgəndər kələfi” yaranmışdı. O, bu kələfi açmaq üçün bəzən öz fəlsəfi doktrinasının poetik sistemini yaratmaq, bəzən də öz bədii düşüncələrinin fəlsəfi həllini tapmağa can atırdı. Bu zaman bütün qədim Prussiya Zərdüştün “Zənd Avesta”sındakı fərziyyələrin təsiri altında idi. Təbiət-insan, insan-insan münasibətləri haqqındakı “Avesta” təlimindən təsirlənən Fridrix Nitsşe, deyəsən, mənəvi intəhasızlığın yolunu tapmışdı: “Mən çox səbirsizliklə oturmuşdum, amma heç nə gözləmirdim, mən nə xeyir, nə də şər haqqında düşünmürdün, amma sevinirdim...” (16,118). Daniel Qalevi Fridrix Nitsşenin psixologiyasına kölgə salan nifrətin, hüzn və kədərin kökünü məharətli bir tədqiqatçı kimi axtarmış və onu əsaslandıra bilmişdir. Fridrix Nitsşe bəzən həyatın xaotik məzmunundan yorulurdu, ona elə gəlirdi ki, həyatda qara rənglər daha çoxdur. Amma onun bu asketik düşüncələri rus yazıçısı M.Zoşenkonun “Etiraf” əsərindəki “dahilərin ruhi sarsıntılarını, mənəvi və psixoloji böhranlarını ictimai mühitdə axtaran” tədqiqata (20,94), və ya Ziqmund Freydin kəşf etdiyi insan həyatının “ilkin sarsıntı” sindromuna bənzəmirdi. Buna baxmayaraq, nədənsə, Fridrix Nitsşenin ən çox oxuduğu və sevdiyi müəllifin - Mopassanın adı da M. Zoşenkonun “qara siyahısında” var idi... Fridrix Nitsşenin həyatını bütün incəliklərinə qədər çözməyə çalışan Daniel Qalevi göstərir ki, onun can atdığı əbədiyyət qanunlarının axtarışlarında belə, Rixard Vaqnerin təsiri duyulur. O, həyatda öz “idealını olduğundan kiçik” (3, 59) görsə də, ondan heç vaxt tam təcrid oluna bilmir və bu mənəvi asılılıq bəzən bir xəstəlik olaraq onu izləyirdi, bəzən isə o, bu müqəddəs yaşantıları olduğu kimi ifadə edə bilirdi; ”...mən onun qarşısında özümü Allahın hüzurunda olduğu kimi hiss edirəm”, - deyirdi... Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu pərəstiş duyğusu xristian apologetçiliyinə və ya bizə yaxşı tanış olan müsəlman məddahlığına qətiyyən bənzəmirdi. Bu hiss, həyatda çox az sayda insanlar üçün ayrılmış böyük sənət qarşısındakı mənəvi təslimçilik, bəlkə də insanın öz qəlbi üçün yaratdığı qandalların ağırlığından doğan mənəvi - ruhi bir sıxıntı, keçilməz bir çərçivə idi...

Zənnimizcə, belə böyük duyğuların adi ürəklər və sadə düşüncələr üçün mövcud olmadığını qeyd etmək, yersizdir. Zatən, elə əvvəlcədən də biz, mənəvi - ruhi varisliyin xətti quruluşunu qəbul etmirdik, amma Fridrix Nitsşedə Şərqə pərəstiş duyğusunu belə açıq-aydın görmək bizi heyrətləndirdi və bizdən sənətə və yaradıcılığa fərqli bir yanaşma tələb etdi. Fridrix Nitsşe hələ çox gənc ikən müəllifinə pərəstiş etdiyi “Ziqfred”, “Tanrıların ölümü”, “Tristan və İzolda” (22,91) əsərlərinin təsiri altına düşür və bu əsərlər öz mifik məzmunu və lirik təntənəsi ilə onun düşüncələrini şumlayır və xeyli dərin çevrilən bu mənəvi sahədən daha ifratçı bir filosof təxəyyülü cücərdi... Rixard Vaqnerin dövlətçilik modeli təkcə Fridrix Nitsşenin yox, bütün Avropanın taleyində dönüş nöqtəsinə çevrildi və gələcək alman nasional-sosializminin yaranmasında ilk və möhtəşəm bir addım oldu. Digər tərəfdən, Rixard Vaqnerin ideyaları Şərqdən Avropaya gəlmiş mistik düşüncənin təsiri ilə yaranan maarifçi modernizmi cəmiyyət üçün mənəvi dekadansa çevirməsi ilə səciyyəvidir. Yeni dövrün ən parlaq və eyni zamanda ən faciəvi düşüncə sahibləri getdikcə Fridrix Nitsşenin əsərlərini oxuyur və onun pərəstişkarlarına çevrilirdilər. Bernard Şou,

Maksim Qorki, Tomas Mann, Andrey Belıy, Jül Renar, Alber Kamyu kimi mütəfəkkirlər daim onu mütaliə edirdilər və onun nəyə görə “mədəniyyəti - hissələrə bölünmüş xaosun üzərindəki nazik bir alma qabığına bənzəyən pərdə” hesab etməsinin səbəbini anlamağa çalışırdılar (23,121). Fikirlər, mühakimələr isə həmişə olduğu kimi çox fərqli idi. L. N. Tolstoy Fridrix Nitsşeni Monassanla müqayisə edirdi. Jül Renar isə onun haqqında yazmışdı: “Nitsşe? Onun barəsində nə fikirləşirəm? Fikirləşirəm ki, familiyasında samit səslər çoxdur” (10,60). Jül Renardan fərqli olaraq, XX əsrin əvvəllərində yazıçı German Gess isə Fridrix Nitsşedən doktor Faustla eyni səviyyədə duran “müqəddəs bir məbəd” kimi söz açmışdı... Rixard Vaqnerin “Parsifal” əsərindən dərhal sonra Fridrix Nitsşe yazırdı: “biz dost idik və indi bir-birimizə yad olmuşuq. Biz ayrı-ayrı yollarla və müxtəlif istiqamətlərə üzən iki gəmiyik... Əgər bizə yerdə düşmən olmaq nəsibdirsə, biz kainatın idarə etdiyi əlaqəyə inanmalıyıq” (16,204). Daniyel Qalevi yazırdı: “Rixard Vaqner gah ona çox yaxın, gah da çox uzaq olurdu” (16,203). Fridrix Nitsşe üçün nə qədər ağır olsa da, o etiraf etməli olur ki, Rixard Vaqner müasir alman cəmiyyətində özünü doğrultmayan xristian ənənələrinə güzəştə getmişdir. Və yaş ötdükcə, Rixard Vaqner xristianlığa qayıtmaq üçün vaxtilə böyük anşlaqla keçən məşhur operalarında öldürdüyü Tanrıları indi yenidən diriltmək məcburiyyətində qalmışdır. Həyat reallığı ilə barışan Rixard Vaqnerin xəstəliyi ilə əlaqədar olaraq Venetsiyaya getdiyini eşidən Fridrix Nitsşe deyir: “ “Parsifal”ı yazan adam, bu cinayətdən sonra öz qalan ömrünü Venetsiyada yox, islah evində keçirməlidir” (16,223). Buna baxmayaraq, Fridrix Nitsşe Vaqnerin ölümündən sonra daha bir cümlə də yaza bilmədi...

Fridrix Nitsşe 1889-cu ildə yazdığı “Antixrist” əsərində İsanın təbliğ etdiyi kölə düşüncəsinə, xristian kilsəsinin insanların fiziki varlığına müdaxilə etməsinə böyük istehza ilə yanaşır, kilsənin raskolçu və asketik ənənələrinə qarşı çıxır, tərki-dünyalığa dözə bilmirdi, düşünürdü ki, əgər hər hansı bir din, insana yarımçıq azadlıq vəd edirsə, onun ardınca getməyə dəyməz. Hətta o, islam dinini bu mənada xristianlıqla müqayisə edirdi və islam dininin insana verdiyi fiziki və mənəvi azadlığa görə onun üstünlüyünü qəbul edirdi. Fridrix Nitsşe öz fövqəl insanını axtara-axtara geriyə gedib Budda təliminə çıxdı. “Antixrist”də buddizmi göylərə qaldıran, onun başı açıq, ayaqyalın azadlığında rahatlıq tapan Fridrix Nitsşe, belə hesab edirdi ki, buddizmdəki tənhalıq, özünə qapanma hissi şüuru işıqlandırır və insan düşüncəsinin yeni imkanlarını üzə çıxarır. Nirvana ilə işıqlanmış, nurlanmış Budda həyatı belə xarakterizə edirdi: “Həyat düqhə - yəni iztirabdır. Həyat burxulmuş oynaq kimidir, kiçik hərəkətlərdən belə ağrıyır”. Buddanın Fridrix Nitsşenin qəlbini fəth edən başqa bir nəsihəti isə belə idi: “Şayiələrə inanmayın, ənənələrə etibar etməyin, kitablardan oxuduğunuzu və müəllimlərdən eşitdiyinizi, özgələrinin fikirlərini qəbul etməyin, öz yolunuza özünüz işıq salın” (12,76). Amma nədənsə, Fridrix Nitsşe düşünə bilmirdi ki, “taha”nı – yəni xudbincəsinə istəməyi və arzuları inkar edən buddizmdəki bu bəsit və ibtidai azadlıq nə qədər cəlbedici və parıltılı görünsə belə, o, insanların ruhi və mənəvi əlaqələrini büsbütün qıra bilmir, zatən insan yox, insanlıq əbədidir...

Maraqlıdır ki, son zamanlar elə bizdə də “insan dünyaya tək gəlir, tək yaşayır və tək gedir” - fəlsəfəsi dəbdədir, amma bu düşüncə nə qədər güclü məntiqə söykənsə də, A.N.Uaytxedin (1861-1947) “mövcudluq yalnız subyekt üçün mümkündür” (28,36) düşüncəsinin məsuliyyətini kim öz üzərindən ata bilər? (görəsən dünya, təkcə özü üçün mövcud olanlara, öz maraqları üçün yaşayanlara bizim bilmədiyimiz qeyri – adi nəyi vəd etmişdir?).

Ən vacib bir məqam da ondan ibarətdir ki, Fridrix Nitsşenin bütün cəhdlərinə baxmayaraq, "Zərdüşt belə demişdir" əsəri yazılarkən o, artıq nə siyasətçi, nə ədəbiyyatçı, nə də tənqidçi idi, o filosof idi. Bu zaman o, sosial mühiti dəyişmək haqqında düşünmürdü, o cəmiyyəti görmürdü, onun üçün dünya şəxsi münasibətlərinin onsuz da hədsiz dərəcədə kiçik olan çevrəsindən çıxıb yaratdığı fövqəl - insanın fəlsəfi baxışlarına yönəldi. Fridrix Nitsşe bu əsərdə həyatın bütün sahələrinə boylanırsa da, heç nə onu təəccübləndirə bilmir, heç bir şey onu tutub saxlamır, o daim yuxarıya, düşüncənin, mənəviyyatın hüdudsuz ənginliyinə doğru can atır, dünya onu təəccübləndirmək, özünə bağlamaq üçün bir də geriyə qaytarmalı, bu dəfə yeni bir adla çağırmalı idi. Ölüm isə onun üçün bu əbədi qayıdışın başlanğıcı, keçid nöqtəsi olduğu üçün cəlbedicidir. Əsərdə həyatın bütün tezalarına qarşı Zərdüştün daha mükəmməl bir antitezasının mövcud olması, fəlsəfi ümumiləşdirmələr göstərir ki, müəllif abstrakt təfəkkürü həyatın bədii həllindən daha üstün hesab edir. Fridrix Nitsşe bu əsərdə özünü axtarmır, o artıq özünü tapmışdır, bu əsər yekundur, axtarışların nəticəsidir, mənəvi böhranların, ruhi çırpıntıların sonudur, məcrasına düşmüş düşüncələrin axınıdır. İdeala pərəstişdən doğan bir düşüncənin məhsulu hesab edilən və bəzən isə xəstə bir təxəyyüllə yazılması güman olunan bu əsərin nə üçün bu günə qədər dünyanın diqqətində qalması maraq doğurmaya bilməz. Nə üçün Fridrix Nitsşe yaddaşlardan silinib getmir? Daniel Qalevi bu sualın cavabını onun əsərlərindəki azadlığın təntənəsi ilə bağlayır. Amma bəzən insan qəlbi azad olduqda da o, insanı büsbütün azad edə bilmir. Bu dəfə insan, öz təfəkkürünün, ağlının əsarətinə ilişib qalır və qəlbinə xəyanət edir... Fridrix Nitsşenin azadlığında qəlbin və ağlın təntənəsi bütövlükdə görünməsə də, ondan başqa kim deyə bilərdi ki: "Həqiqətən də, insan – çirkli axındır. Dəniz olmaq lazımdır ki, bu çirkabı özündə çökdürəsən və təmiz qalasan", (23,6). və ya kim deyə bilərdi ki: "Dağlarda ən qısa yol zirvədən –zirvəyədir, amma bunun üçün uzun ayaqlara malik olmaq lazımdır", və ya "Mən eləsini sevirəm ki, onun başı ürəyinin məzarıdır"? (23, 29).

Mənəviyyat ilk öncə Şərqin tədqiqat sahəsi olmuşdur. Konfutsi, Fridrix Nitsşedən fərqli olaraq insanı cəmiyyətlə daha sıx bağlayırdı və düşünürdü ki, hər bir insan əslində öz həyatında olan incə duyğuların, xırda detalların, kiçik hissələrin, əhəmiyyətsiz görünən hadisələrin cəmidir. Konfutsi asketizmi rədd edir, sosial sistemləri cəmiyyətin mənəvi bağı sayır, rituallarda həyatın harmoniyasını axtarırdı və tələbələrinə deyirdi: "Rituala yad olanlara baxma, rituala yad olanlarla oturub – durma, rituala yad olan sözlər danışma, ritualdan kənara çıxan işlər görmə" (21,74)... Fridrix Nitsşe isə Şərqin yalnız mənəviyyata köklənən, özünü axtaran, insanı ilahiləşdirən düşüncələrinə söykənirdi. "Zərdüşt belə demişdir" əsərində Zərdüştün təbiətlə münasibətinə diqqət yetirsək, Fridrix Nitsşenin düşüncələri bizə daha çox aydın olacaqdır. Zərdüşt onu sancan ilana deyir: "... öz zəhərini geri götür, sən kifayət qədər varlı deyilsən ki, mənə nə isə bağışlayasan " (23,48). İnsan iradəsinin böyüklüyü, ağıl və zəkasının hər şeyə qadir olması müəllifin qəlbini coşdurur və onun ictimai deyil, fərdi şüuruna əsaslandığını sübut edir. Cəmiyyətdən yayınan Fridrix Nitsşenin böyüklüyü nədədir? Nə üçün onu hələ də oxuyurlar, Zərdüşt bizə nə verir? Bu suala ilk əvvəl müəllifin özü cavab vermişdi, o adilikdən qaçmağa çalışır, mənəviyyatı ideallaşdırırdı: "...insan mənim üçün o qədər təkmil deyil ki, mən onu sevə bilim, insana məhəbbət məni öldürərdi" (23, 6). Bəli, adi insan onu özünə cəlb edə bilməzdi, o fövqəl, ilahi bir varlıq axtarırdı, elə bir varlıq ki, onu öz düşüncələrinin sehrinə sala bilsin. Onun üçün həyatın heç bir əziz neməti mövcud olmasın, o, dar mənada işlənən hər

cür məna və mahiyyətdən azad olsun. Dünyadan, insanlardan azad olmaq mümkün olduğu kimi, özündən azad olmaq da ona nəsib olsun. İnsan həyatının mənası bəzən Fridrix Nitsşenin özü üçün də bu düşüncələrin, tərəddüdlərin içərisində itib gedirdi: "həyat uçurum üzərindən çəkilmiş kanat kimidir, getmək qorxuludur, qalmaq qorxuludur, yolda olmaq qorxuludur "- deyə etiraf edirdi. Fridrix Nitsşe insan qəlbinin incəliklərinə, mənəviyyatın dərinliklərinə daha çox endikcə, özündən uzaqlaşırdı (23,5).

Fridrix Nitsşe "Zərdüşt belə demişdir" əsərini "Beşinci Yevangeliya" (İncil) adlandırırdı. Bu əsər onun mənəvi – ruhi axtarışlarının həcminə görə nə qədər mükəmməl olsa da, onu İsanın dörd apostolu - həvarisi- Matfey, Mark, Luka və İohanın qələmə aldığı müqəddəs İncilə əlavə saymaq düzgün deyildi. İsanı qəbul etmədən onun kölgəsinə sığınmaq, ona bu qədər yaxınlaşmaq, nəhayət, onunla yanaşı durmaq iddiası nə dərəcədə doğru idi? Bu iddiada olan Fridrix Nitsşe nədənsə, İncildə ən vacib bir məqamı, insana sevgini diqqətdən qaçırmışdı. Müqəddəs İncildə deyilirdi: "Əgər peyğəmbərlik ənamım varsa və bütün sirləri bilirəmsə, hər cür biliyə və dağları yerindən tərpədəcək dərəcədə imana malikəmsə, amma məhəbbətim yoxsa, mən heçəm" (9; 13, 8.). Zərdüşt, insanlara İsanın öyrətdiyi bu vacib şeyi verə bilmirdi, o insanlara elə bir şeyi gətirməmişdi ki, yer üzündə qurtuluşun yeganə yolu, məhz onda idi. İsaya qədər gələnlər də insanlara çox şey öyrətmişdilər. Bir anlıq, İsanın gələcəyini böyük həsrətlə gözləyən və insanları tövbə üçün İordan çayında vəftiz edən müqəddəs Yəhyanın sözlərini xatırlayaq: "Mən sizi tövbə üçün su ilə vəftiz edirəm; fəqət məndən sonra Gələn, məndən daha qüdrətlidir... O, sizi Müqəddəs Ruh və atəşlə vəftiz edəcəkdir" (9; 3,11.). İsa insanlara onların hələ bilmədikləri müqəddəs bir hissdən, ruhani bir sevgidən xəbər gətirdi, çünki İsanın imtina düşüncəsində sevgi böyüdülmüşdü, İsa ruhaniliyi yenidən kəşf etmişdi... Fiziki varlığı önə çəkən instinkt heç vaxt azadlıq verə bilməz, insan öz ağlının qüdrəti və qəlbinin hökmü ilə böyükdür. Şərq sufizmindən fərqli olaraq, Fridrix Nitsşe Allaha daha primitiv yanaşaraq onu kiçiltdi və fiziki cəhətdən öldürürdü. Allahı öldürmək üçün onu insanlaşdırmaq, fiziki varlığını hasilə gətirmək lazım idi ki, bunu əzabkeşlər və sufilər artıq Fridrix Nitsşe üçün tarixi baxımdan hazırlamışdılar. Nəzəri cəhətdən bu təlimlər biri digərini doğurmuşdu, çünki hər ikisində Allaha maddi məzmun verilmişdi... Zərdüşt öz fəlsəfi axtarışlarında fəlsəfə daşını tapır, amma onu nə edəcəyini bilmir, çünki bu zaman o, polyak aforisti S.Letsin (1909-1966) bu məntiqdən hələ xəbərsiz idi: "Filosoflar! Fəlsəfə daşını gəzməyin! Onun sizin boğazınıza bağlanacağı ehtimalı vardır" (27, 34).

Fridrix Nitsşenin yaradıcılığı bəzən Hüseyn Cavidlə müqayisə edilir. Hüseyn Cavid Fridrix Nitsşedən fərqli olaraq əxlaq qanunlarını danmır, əksinə hətta onun iblisə münasibətində də tərbiyə üçün yer vardır. Bəlkə də hər iki müəllifi "Peyğəmbər" mövzusuna müraciət etdiyinə görə müqayisə etmək olar. O zaman bu siyahıya C.X.Cübranın "Peyğəmbər"ini, İ.Hötenin "Məhəmmədin nəğməsi", bəlkə M. Nüaymənin "Mirdadın kitabı"nı da əlavə etmək olar (6, 266). Əgər biz "gəzən süjetlər" axtarırıqsa, müqayisə caizdir. Yox, əgər müqayisə dini məzmundadırsa, o zaman atəşpərəstlik, buddizm, yəhudilik, xristianlıq və islam dini paralel şəkildə tədqiqat obyektinə çevrilə bilər...

Böyük fransız filosofu Eduard Şüre (1841-1929) Rixard Vaqnerlə şəxsən tanış idi və onun dinə qayıtmasına bəraət qazandırmaq üçün yazmışdı: "Nə zaman ki, insanın qəlbi kütləşir, o zaman din bütpərəstliyə çevrilir" (30,323). Əslində bu fikirlər Fridrix Nitsşeyə də eyni dərəcədə aid idi, çünki yalnız dini hiss qəlbi olduğu kimi əks etdirə bilir...

Bəzi nitsşeçilər düşünürlər ki, Nitsşenin zəngin fəlsəfi dili Alman fəlsəfi təfəkkürünün formalaşmasına səbəb olmuşdur, guya fəlsəfə tamamilə dilin zənginliyindən asılıdır. Əslində fəlsəfə filoloji düşüncənin məhsulu deyildir və yalnız dil, təkcə dil nə qədər zəngin olsa belə, fəlsəfə yarada bilməzdi. Əgər fəlsəfə dili yaratmırsa, demək dil də fəlsəfənin radikal şəkildə yaradıcısı ola bilməz. Məsələn, "Peyğəmbər" mövzusu nə qədər geniş yayılsa və nə qədər cəlbedici olsa da, Cavidin, Cübranın yaradıcı düşüncəsinin həddini keçə bilməzdi, necə ki, iblislər, Mefistofellər adi insan düşüncəsində yerləşən şeytan təsəvvüründən uzağa getmir. Təbii ki, İnsan dildə kiçildilmişdir. O heç vaxt yaşadığı hissi olduğu kimi çatdıra bilmir. O, həmişə nə isə deyir, bu danışıq ya evfemik, ya da disfemik ola bilər, bu əsas deyil, əsas odur ki, kobud və ya incəliyindən asılı olmayaraq, burada həmişə müəyyən bir fikri axtarıb tapmaq mümkündür. Şüur hansı səviyyədədirsə, dil də o ölçüdədir, təfəkkür də elə həmin əhatə dairəsindədir. Fridrix Nitsşe Rodeyə yazmışdı. "...mən bir homo literatus kimi etiraf etmək istəyirəm, mənə elə gəlir ki, mən yüksək dərəcədə öz Zərdüştümlə alman dilini yaxşılaşdırmışam. Lüter və Hötedən sonra üçüncü bir addım qalmışdı; fikir ver, gör... nə vaxtsa, bizim dildə belə bir gücün birləşməsi, çeviklik və səslərin gözəlliyi olubmu... Mənim stilim rəqsə bənzəyir; mən azad bir şəkildə mümkün bütün simmetriyalarla oynayıram, mən onlarla hətta sait səsləri seçəndə də oynayıram" (16, 241). Həqiqətən də, o, bir bəstəkar, bir şair olaraq səsləri, sözləri, musiqini çox gözəl bir şəkildə ayırd edir, seçə bilirdi. O, bəzən düşünürdü ki, italyan dili və musiqisi çox şirindir, alman dili və musiqisi isə insanı çox yükləyir. Fridrix Nitsşeni həmişə lirik, canlı, ciddi, incə, ritmik, məzəli və eyni zamanda ehtiraslı dillə yazılmış bir əsər özünə cəlb edirdi... Dil söz yığınından ibarət deyil, dil fəal nöqtələrin kontaktlarından yaranan xüsusi bir fəzadır. Dil "...fikrin rahatca axıb töküldüyü hazır forma deyil..." (5, 212). "... dil iki amorf kütlənin qarşılıqlı əlaqəsindən formalaşaraq öz vahidlərini hazırlayır... suyun səthi ilə... dalğalar meydana çıxır. Məhz bu dalğalar fikirlə səs materiyasının əlaqəsi, necə deyərlər, "cütləşməsi barədə təsəvvür yaradır" (5, 213). Əslində bu prosesi ən sadə şəkildə biz təbiətdə balıqların yaranma faizinin kürü dənəciklərinin müvəffəqiyyətli toqquşmasından asılı olması ehtimalına bənzədə bilərik, nə qədər kontakt zonası işğal edilirsə, o qədər məhsul əmələ gəlir... Dil sərhədi təfəkkürü zamanca genişləndirir. Biz deyə bilmiriksə, demək düşünə bilmirik. Hər bir yeni dil konfiqurasiyası olan cümlə maddiləşmiş fikirdir, fikir maddiləşən kimi yüklənir və materiyaya çevrilir. Həyat obrazın obrazıdır, modeldən yaranan modelin, iki dəfə üzü köçürülən və təhrif dolu nüsxənin qarşısında fəlsəfi təfəkkür və ya dil çox zəif arqumentlə çıxış edir. Dil fəlsəfədə sıxlaşdığı qədər, fəlsəfə dildə genişlənir, yəni hər bir xalqın düşüncəsi, təfəkkürü həcmində onun dili inkişaf edir və ya əksinə. Alman klassik fəlsəfəsi alman dilinin, alman düşüncəsinin həcmi qədər böyümüşdü, təbiidir ki, fəlsəfədə milli şüur, milli təfəkkür böyük rol oynayır, dar düşüncələr fəlsəfə üçün yararlı ola bilməz. Dil milli xüsusiyyət daşıyır, nitq dildən daha dar bir anlayışdır, nitq həmişə oyundur və səhnə tələb edir. "Dil ona görə lazımdır ki, nitq anlaşıqlı olsun, nitq isə ona görə lazımdır ki, dil təşəkkül tapsın. Dil bütövlükdə mövcuddur... lüğət kimi, nitq... fərdi və anidir" (5,80). Əgər hər hansı bir dildə aforizmlər, atalar sözləri yarana bilirsə, əgər hər hansı bir xalq, böyüdə, oxşada, kiçildə, əzizləyə bilirsə, demək onun dili kasıb deyildir. Əgər metafora, anafora və s. kimi dilə digər müxtəlif "foralar" verilə bilirsə, dilin bütün bərbəzəyi yerindədirsə, deməli dil imkanlıdır. Qalır həmin dildə Zərdüştü yaratmaq...Və nəhayət, öz tədqiqatlarında Fridrix Nitsşenin bu fikirlərinə əsaslanan Daniyel Qalevi Fridrix Nitsşenin qeyri - adi

axtarışlarını və qeyri - adi tapıntılarını belə ümumiləşdirir: "Onun ideyalarının əsil mənası nə idi? Bunlar simvolik xarakter daşıyırdımı və ya real həyat həqiqəti idimi, bunlar illüziya və ya ümid idimi? Bu suallara cavab vermək çətindir... Bizə elə gəlir ki, fövqəl – insan, şair-lirikin illüziyası, xəyali yalanıdır" (16,221). Daniel Qalevidən fərqli olaraq, biz düşünürük ki, bu əsərdə Fridrix Nitsşe şair deyil, tənqidçi deyil, o, filosofdur və onun fəlsəfi düşüncələrinin mahiyyəti Zərdüştün "qayıdış doktrinası"ndan qaynaqlanır. Zərdüştün dünyadan uzaqlaşması dünyanı daha yaxşı görmək üçün idi, bunu, ekses – yəni təkan üçün geriyə çəkilmək manerası kimi də başa düşmək olar. Amma dünyada kəsişməyən əbədi həqiqətlər mövcud olsa da, insan öz gündəlik həyatında kəsişən həqiqətlərlə yaşamalı olur.

Görmək, tanımaq öz qəhrəmanını axtarıb tapmaq və sevmək, Fridrix Nitsşenin bütün yaradıcılıq idealı budur. Halbuki, "Bu dünyanın izolyasiyası zəifdir. O, həmişə yarımçıq sistemdir" (7,172).

## ƏDƏBİYYAT


1. Bünyadov Z. Məmmədəliyev V. Qurani-Kərim. Bakı: Azərnəşr, 1991, 715 s.
2. Cübran X.C. Sükutun poeziyası / Ərəb, ingilis və rus dillərindən seçilmiş tərcümələr. Bakı: Şərq-Qərb, 2009, 244s.
3. Əfəndiyev A. Mütləqə inam, Bakı: Təbib, 1999, 298 s.
4. Əsədova A. Avropa ədəbiyyatşünaslığı və Azərbaycan ədəbi-nəzəri fikri, Bakı: Elm, 2006, 274 s.
5. Ferdinand de Sössür "Ümumi dilcilik kursu". Bakı: BDU, 2003, 408 s.
6. Xəlilov S. Şərq ruhunun Qərb həyatı. Aida İmanquliyevanın yaradıcılıq axtarışlarının izi ilə. Bakı: Şərq-Qərb, 2009, 380 s.
7. Xəlilov S. Fəlsəfə və sosial siyasi elmlər, elmi-nəzəri jurnal, Bakı: AU, 2008-№ 4, s. 159-185 .
8. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı: AU, 2007, 520 s.
9. İncil (Əhdi Çədid). Bakı: Bibliya tərcümə İnstitutu, 1991, 621 s.
10. Renar Jül. Gündəlik. Bakı: Gənclik. 1974, 72 s.
11. Səməd Vurğun. Böyük sənət uğrunda B.: Gənclik, 1970, 191 s.
12. Staneki-Kozvoski Mayra, Heyns V., Usami D. Mənim dünyam və mən. Birləşməyə doğru yol kitabında. Bakı: Gənclik, 1997, 292 s.
13. Антуан Сент – Экзюпери де, Перевод с Фр. М.: Худ. Лит. 1983, 447 с.
14. Библия М.: Российское Библейское Общество, 2007, 1326 с.
15. Гарин И. Ницше, М.: Терра, 2000, 846 с.
16. Галеви Д. Жизнь Фридриха Ницше, Издание М. О. Вольфа, 1911, 318 с.
17. Гете И.В. Собрание сочинений, в 10-ти т., III т. Из моей жизни. Поэзия и правда. пер. с немец. Н. Манн. М.: Худ. лит., 1376, 718 с.
18. Гёте И.В. Собрание сочинений в 10-ти т., X т. Об искусстве и литературе. М.: Худ. лит. 1980, 510 с.
19. Закон Божий (для семьи и школы). Составитель С.Слободский. 1987, 723 с.
20. Зощенко М. Исповедь. М.: Советская Россия, 1987, 464 с.
21. Конфуций Уроки мудрости, М.:Эксмо-пресс, Харьков: Фолио, 1999, 958с.
22. Музыкальный энциклопедический словарь. М.: Советская энциклопедия, 1990, 672с.
23. Ницше Ф. Так говорил Заратустра. В 2-х т., II Т. М.: Мысль, 1990, 802 с.
24. Пайс А. Научная деятельность и жизнь Альберта Эйнштейна пер. с анг. (Под ред. акад. А.А. Логунова). М.: Наука, 1989, 568 с.
25. Преподобный Иустин (Попович) Философские пропасти. М.: Издательский Совет Русской Православной Церкви, 2004, 288 с.
26. Соловьев В.С. Оправдание добра. Нравственная философия. В 2-х т., I т. М.: Республика, 1996, 479 с.
27. Стани́слав Е́жи Лец Непричесанные мысли. Изд.: Вахазар, Рипол Классик, 2007, 384 с.

28. Уайтхед А. Н. Избранные работы по философии. М.: Прогресс, 1990, 720с.
29. Фрейд Зигмунд Психоанализ и культура. Леонардо да Винчи, СПб.: Алетейя, 2000, 296 с.
30. Шюре Э. Великие посвящённые. Очерк эзотеризма религий. СП «Книга – Принтшоп» пер. с фр. Е.Писаревой. / СПб., 1914, 420 с.

## ПЯТАЯ КНИГА. ФРИДРИХ НИЦШЕ И НИЦШЕАНСТВО

**С.М.АЛИЕВА**

**РЕЗЮМЕ**

В статье полностью отражается жизнь и творчество Фридриха Ницше. Здесь автор связывает самые важные исторические события того времени с творчеством Фридриха Ницше. Автор объясняет сходные и отличительные особенности произведений "Так сказал Заратустра" и Евангелия. Анализирует все особенности Заратустры и объясняет, почему до сих пор это произведение читается с большим интересом. В статье указываются положительные и отрицательные особенности Фридриха Ницше и ницшеанство. В статье внимание направлено в сторону отделяющихся друг от друга особенностей законов природы и общества. Здесь автор также исследовал проблемы возникновения литературного и философского языка.

## THE FIFTH BOOK. FREDRIK NIETZSCHE AND NIETZSCHEISM

**S.M.ALIYEVA**

**SUMMARY**

The article deals with the life and the creative works of Fredrik Nietzsche. The author connects the most important historical events of those times with the creative works by Fredrik Nietzsche. Similar and distinctive features between the works "So Zarathustra told" and “the Gospel” are studied. The author analyzes Zarathustra’s all characteristics, and explains why this work is still read with great interest. In the article, positive and negative features of Fredrik Nietzsche and Nietzscheism are noted. The attention is directed to the features of the distinctive rules of nature and society. The author researches the problems of formation of the literary and philosophical languages in the article.